Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin
"29" dekabr 2017-ci il tarixli "İ-117"
nömrəli əmri ilə təsdiq edilmişdir.

# Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan Azərbaycan Respublikası Maliyyə Nazirliyinin vəzifəli şəxslərinin Siyahısı

**1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - Məcəllənin) **181.0.4-cü** *(Təhsil haqqında qanunvericiliyin pozulması, yəni dövlət təhsil və elmi tədqiqat qrantlarının təhsil müəssisəsinin həmin qrantların verilmə məqsədlərinə uyğun gəlməyən fəaliyyət sahələrinin maliyyələşdirilməsinə yönəldilməsi ilə bağlı inzibati xəta Maliyyə Nazirliyi tərəfindən aşkar edildikdə)* maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

- maliyyə naziri, onun birinci müavini və müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, Sosial sahələrin maliyyəsi şöbəsinin və Maliyyə xidmətləri üzrə siyasət şöbəsinin müdirləri, onların müavinləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri və məsləhətçiləri, Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi, onun müavinləri, Xidmətin baş məsləhətçi-hüquqşünası, Xidmətin Büdcə təşkilatlarında nəzarət tədbirlərinin aparılması şöbəsinin, Qeyri-büdcə təşkilatlarında nəzarət tədbirlərinin aparılması şöbəsinin və Nəzarət tədbirlərinin təşkili və metodologiya şöbəsinin müdirləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri və aparıcı məsləhətçiləri, Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidmətinin regional maliyyə müfəttişliklərinin rəisləri, həmin müfəttişliklərin baş məsləhətçiləri və aparıcı məsləhətçiləri, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın rəhbəri, Büdcə şöbəsinin və Maliyyə nəzarəti şöbəsinin müdirləri, onların müavinləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri və aparıcı məsləhətçiləri.

**2.** Məcəllənin **464-cü** *("Məcburi auditdən yayınma", yəni "Auditor xidməti haqqında" Qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınma ilə bağlı inzibati xəta haqqında işin baxılması Maliyyə Nazirliyinə aid hissədə*) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

- maliyyə naziri, onun birinci müavini və müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, Uçot siyasəti şöbəsinin və Vergi siyasəti və gəlirlər şöbəsinin müdirləri, onun müavinləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri və məsləhətçiləri, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın rəhbəri, Büdcə şöbəsinin və Maliyyə nəzarəti şöbəsinin müdirləri, onların müavinləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri və aparıcı məsləhətçiləri.

**3.** Məcəllənin **465-ci** *(İanələr barədə məlumatın maliyyə hesabatına daxil edilməməsi, yəni qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və nümayəndəliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunan maliyyə hesabatına qəbul edilmiş ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatın daxil edilməməsi)* və **466-cı** (*İanə edilən pul vəsaitlərinin nağd şəkildə verilməsi və qəbul edilməsi, yəni ianə edilən pul vəsaitlərinin qeyri-hökumət təşkilatına, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və nümayəndəliyinə nağd şəkildə verilməsi və ya onlar tərəfindən nağd şəkildə qəbul edilməsi)* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

- maliyyə naziri, onun birinci müavini və müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, Sosial sahələrin maliyyəsi şöbəsinin və Maliyyə xidmətləri üzrə siyasət şöbəsinin müdirləri, onların müavinləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri və məsləhətçiləri, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın rəhbəri, Büdcə şöbəsinin müdiri, onun müavini, həmin şöbənin sektor müdiri, baş məsləhətçisi və aparıcı məsləhətçisi.

**4.** Məcəllənin **553-cü** *("Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanuna əsasən alınan torpağa daxil olmaq və ya onun üzərində sahibliyin əldə olunması ilə bağlı digər hərəkətləri həyata keçirmək səlahiyyəti verilmiş şəxsin (Nəzarət orqanına münasibətdə - Maliyyə Nazirliyinin vəzifəli şəxsinin) səlahiyyətlərinin həyata keçirilməsinə mane olma)* maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

- maliyyə naziri, onun birinci müavini və müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, İnfrastruktur təyinatlı layihələrin maliyyəsi şöbəsinin və Sosial təyinatlı layihələrin maliyyəsi şöbəsinin müdirləri, onların müavinləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri və məsləhətçiləri, Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi, onun müavinləri, Xidmətin baş məsləhətçi-hüquqşünası, Xidmətin Büdcə təşkilatlarında nəzarət tədbirlərinin aparılması şöbəsinin, Qeyri-büdcə təşkilatlarında nəzarət tədbirlərinin aparılması şöbəsinin və Nəzarət tədbirlərinin təşkili və metodologiya şöbəsinin müdirləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri və aparıcı məsləhətçiləri, Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidmətinin regional maliyyə müfəttişliklərinin rəisləri, həmin müfəttişliklərin baş məsləhətçiləri və aparıcı məsləhətçiləri, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın rəhbəri, Maliyyə nəzarəti şöbəsinin və Milli iqtisadiyyatın maliyyəsi şöbəsinin müdirləri, onların müavinləri, həmin şöbələrin sektor müdirləri, baş məsləhətçiləri və aparıcı məsləhətçiləri.